# Ümumi qaydalar və şərtlər

## 1. Anlayışlar və təyinlər

- Sistem – Mobil qurğuya qabaqcadan quraşdırılmış, barəsində Servis-provayderin müstəsna hüquqlara malik olduğu, özlüyündə Ödəniş xidmətlərinin göstərilməsi üçün Mobil qurğulara əlavə təmsil edən proqram təminatı.
- Servis-provayder – Müştərinin, Ödəniş xidmətlərinin təqdim edilməsi haqqında müqavilə bağladığı, Mobil qurğunun istehsalçısı olan şirkət.
- Bank — «Expressbank» Açıq Səhmdar Cəmiyyəti
- Müqavilə — Kompleks bank xidməti şərtləri.
- Müştəri — Bankla müqavilə bağlamış fiziki şəxs.
- Toxunuşsuz ödəniş – toxunuşsuz hesablama qurğusunda Rəqəmsal kartdan istifadə etməklə yerinə yetirilmiş ödəniş.
- Autentifikasiya verilənləri – Müştərinin avtorizasiya üçün parolu (biometrik verilənlər (barmaq izinə görə avtorizasiya, sifətin tanınması) də daxil olmaqla, lakin onlarla məhdudlaşmayaraq), FİN-kod, qrafik açarı, həmçinin Sistemə daxil olmaq üçün istifadə edilən digər verilənlər. Autentifikasiya verilənləri Müştərinin öz əli ilə atdığı imzanın analoqudurlar.
- Rəqəmsal kart – Müştərinin, Sistemdə istifadə üçün seçdiyi və qeydiyyatdan keçirdiyi kart.
- Mobil qurğu – naqilsiz ödəniş qurğusu.

## 2. Başlıca müddəalar

2.1. Bu sənəddə, Bankın istənilən Rəqəmsal kartlarından Sistemdə istifadə edilməsini tənzimləyən şərtlər yer almışdır.

2.2. Bu Şərtlər, Bankla Müştəri arasında münasibətlərdə Müştərinin Rəqəmsal kart ilə giriş və ondan istifadə qaydalarını müəyyən edir.

## 3. İş prinsipi

3.1. Ödənişlərin həyata keçirilməsi

3.1.1. Sistem, Müştərinin satış məntəqələrindəki toxunuşsuz terminallarda toxunuşsuz ödənişləri yerinə yetirə bilməsi üçün, Müştərinin Mobil qurğusunda Kartın Virtual təsvirini yaratmaq imkanı verir;

3.1.2. Müştəri Kartı, onu öz kartlarının arasından seçərək, elektron pul qabında qeydiyyatdan keçirir. Kartın müvəffəqiyyətli verifikasiyasından sonra, Sistem Rəqəmsal kartı formalaşdırır və Sistemdə onun Virtual təsvirini formalaşdırır.

3.1.3. Müştəri, Rəqəmsal kartın köməyi ilə Bank tərəfindən müəyyən edilmiş limitdən yuxarı ödənişin yerinə yetirilməsi üçün, Rəqəmsal kartın razılığa əsaslanan Virtual təsvirini seçərək və Mobil qurğunu satış məntəqəsindəki toxunuşsuz ödəniş terminalı və yaxud hesablayıcı qurğu ilə yanaşı yerləşdirərək, Autentifikasiya verilənlərini daxil etmək yolu ilə ödənişi təsdiq edir.

3.1.4. Müştəri, Rəqəmsal kartın köməyi ilə Bank tərəfindən müəyyən edilmiş limitdən aşağı ödənişin yerinə yetirilməsi üçün, Rəqəmsal kartın razılığa əsaslanan Virtual təsvirini seçərək və Mobil qurğunu satış məntəqəsindəki toxunuşsuz ödəniş terminalı və yaxud hesablayıcı qurğu ilə yanaşı yerləşdirərək, Autentifikasiya verilənlərini daxil etmək yolu ilə ödənişi təsdiq edir.

3.2. İnformasiyanın və ödənişlərin nəzərdən keçirilməsi.

3.2.1. Sistem Müştəriyə, Rəqəmsal kart vasitəsi ilə bundan əvvəl yerinə yetirilmiş əməliyyatlar (alışın tarixi, məbləği, satıcının adı) haqqında informasiyaya giriş təqdim edir.

3.2.2. Sistem, Sistemin köməyi olmadan yerinə yetirilmiş əməliyyatlar haqqında informasiya təqdim edə bilmir.

3.3. Müştərinin hüquq və öhdəlikləri.

3.3.1. Müştəri, Sistemdə qeydiyyatdan keçənə kimi, Sistemdə ancaq Müştərinin biometrik verilənlərinin (barmaq izinə görə avtorizasiya, sifətin tanınması) qeydiyyata alındığına, Kartdan istifadə edilməklə əməliyyatlar üzrə sövdələşmələrin təsdiq edilməsi zamanı ancaq bu barmaq izlərinin nəzərə alınacağına əmin olmalıdır. Əgər Müştəri, Mobil qurğuda avtorizasiya üçün və yaxud barmaq izinə görə daxil olmaq üçün və ya Müştərinin Mobil qurğusunda əməliyyatların yerinə yetirilməsi üçün başqa şəxsin barmaq izlərindən (və yaxud Autentifikasiya verilənlərindən) istifadə edirsə, onlar Müştərinin barmaq izləri hesab ediləcəklər.

3.3.2. Müştəri öz Autentifikasiya verilənlərini üçüncü şəxslər üçün əlçatmaz yerdə saxlamalıdır.

3.3.3. Müştəri, Autentifikasiya verilənlərinin və ya Rəqəmsal kartın verilənlərinin itirildiyi və/və ya komprometasiya olunduğu halda, dərhal bu barədə Bankı məlumatlandırmağa borcludur .

3.3.4.Autentifikasiya verilənlərinin və ya Rəqəmsal kartın verilənlərinin itirildiyi və/və yaxud komprometasiya olunduğu barədə Müştəri tərəfindən Bankın məlumatlandırılmadığı və/və ya vaxtında məlumatlandırılmadığı halda, Bank Müştərinin mümkün olan itkiləri üçün məsuliyyət daşımır.

3.3.5. Müştərinin Rəqəmsal kartının və Autentifikasiya verilənlərinin köməyi ilə həyata keçirilmiş alışlar və ya digər əməliyyatlar Müştərinin əməliyyatları hesab edilirlər.

3.3.6. Rəqəmsal kartın yaradılması üçün, Müştərinin adına açılmış, ləğv edilməmiş və ya bloka alınmamış istənilən kartdan istifadə etmək olar.

3.3.7. Müştəri istənilən vaxt, Sistemdən Rəqəmsal kartı siməklə, Ödəniş xidmətlərindən imtina etmək hüququna malikdir.

3.4. Bankın hüquq və öhdəlikləri.

3.4.1. Müştəriyə Sistemdə Kartın qeydiyyata alınmasında və Rəqəmsal kartın yaradılmasında imtina etmək.

3.4.2. Rəqəmsal kartın hərəkətini və ondan Sistemdə istifadə edilməsi imkanını bloka almaq, Kartın / Rəqəmsal kartın Sistemdən çıxarılması haqqında sərəncam vermək və bunun üçün bütün zəruri tədbirlər görmək:

3.4.2.1. Müştəri tərəfindən, bu Şərtlərlə nəzərdə tutulmuş öhdəliklər yerinə yetirilmədikdə və yaxud lazımi qaydada yerinə yetirilmədikdə;

3.4.2.2. Rəqəmsal kartdan və/və ya Kartdan sanksiya verilməmiş istifadə edilməsi barədə şübhələr olduqda.

3.4.3. Limiti, Müştərinin Autentifikasiya verilənlərinin daxil edilməsini tələb edən məbləğdə, dəyişmək.

3.4.4. Bank, Müştərinin Rəqəmsal kartdan istifadə məsələləri üzrə informasiya dəstəyini 132 nömrəli telefonla təmin etməyə borcludur.

**4. Məxfilik və təhlükəsizlik**

4.1. Şəxsi məlumatlar.

4.1.1. Müştəri bununla tanış olur və razılaşır ki, Bank, aşağıdakıları təmin etmək üçün, texniki, şəxsi verilənlərin və onlarla bağlı informasiyanın toplanmasını, emalını və ondan istifadə edilməsini həyata keçirmək hüququna malikdir:

4.1.2. Bankın məhsullarının, xidmətlərinin yenilənməsi və təkmilləşdirilməsi;

4.1.3. Göstərilən xidmətlərin təhlükəsizliyinin yüksəldilməsi;

4.1.4. Möhtəkirliyin qarşısının alınması;

4.2. Digər şəxslər tərəfindən toplanan informasiya.

4.2.1. Bank, Sistemin və yaxud Servis-provayderin digər kənar təchizatçısının xidmətləri üçün məsuliyyət daşımır. Beləliklə, Müştəri tərəfindən Rəqəmsal kartdan və ya Sistemdən istifadə olunması zamanı Servis-provayderin topladığı istənilən informasiya Servis-provayderin Şərtləri ilə və üçüncü tərəflərlə bağlanmış Müqavilələrlə tənzim edilir, lakin bu Şərtlərlə, Müqavilə ilə və Bankın məxfilik siyasəti ilə tənzim olunmurlar.

4.3. Müştərinin Mobil qurğusunun itirilməsi, oğurlanması və ya ondan sanksiya verilməmiş istifa edilməsi.

4.3.2. Autentifikasiya verilənlərinin komprometasiya olunması halında və yaxud komprometasiya olunmasına şübhənin olduğu halda, Müştəri dərhal özünün şəxsi təhlükəsizlik məlumatlarını, Autentifikasiya verilənlərini dəyişməli və, Rəqəmsal kartdan və ya şəxsi informasiyadan istənilən sanksiya verilməmiş istifadədən uzaq olmaq üçün, Mobil qurğuda ancaq icazə verilmiş barmaq izlərinin qeydiyyata alındığına əmin olmalıdır.

4.3.3. Yeni Mobil qurğunun alınması zamanı Müştəri, dəyişdirilən mobil qurğuda bütün Rəqəmsal kartların, digər şəxsi informasiyanın silindiyinə əmin olmalıdır. Bunun üçün Müştəri Banka 132 nömrəli telefonla, Rəqəmsal kartların silinməsi haqqında sərəncamla müraciət edə bilər.

4.3.4. Müştəri, istənilən təhqiqatların aparılması zamanı Banka dəstək verməli və möhtəkirliyin və kartların komprometasiyasının qarşısını ala biləcək digər tədbirlərdən istifadə etməlidir.

4.4. Sistemin parollarının, digər Autentifikasiya verilənlərinin və Kartların (Rəqəmsal kart qismində seçilmişlərin) mühafizəsi.

4.4.1. Müştəri, şəxsi təhlükəsizlik məlumatlarının və Autentifikasiya məlumatının məxfiliyini təmin etməlidir. Müştəri, onların qorunub saxlanmasını, habelə Mobil qurğunun qorunub saxlanmasını, Bank kartlarının və Müştərinin şəxsiyyətini təsdiq edən digər məlumatların, nömrələrin və parolların qorunub saxlanmasını təmin etdiyi qaydada, təmin etməlidir.

4.4.2.Bank, Rəqəmsal kartın təhlükəsizliyi üzrə məlumatların, Müştəri tərəfindən istifadə olunan məlumatlardan ayrı saxlanılmasını təkidlə tövsiyə edir. Bank kartlarını Mobil qurğu ilə bir yerdə saxlamamalı.

4.4.3. Bank, Mobil qurğunun blokdan çıxarılması vasitəsi kimi qrafik açardan istifadə edilməsini tövsiyə etmir.

4.4.4 Bank, Servis-provayderlə razılaşdırılmadan, proqram təminatının sanksiya verilməmiş quraşdırılması üçün qurğunun sındırldığı təqdirdə, təhlükəsizliyi təmin etmir.

4.4.5. Bank, işləyib hazırlayanın parametrlərinin Müştərinin Mobil qurğusuna daxil edilməsini tövsiyə etmir.

4.4.6. Müştərinin kartı sistemə əlavə etməsi barəsində bildirişi aldıqdan sonra, bu şərtlə ki, Müştəri bu cür qeydiyyatı yerinə yetirməmiş olsun, və yaxud Mobil qurğuda və ya Kart üzrə çıxarışda Müştərinin tanımadığı hər hansı bir əməliyyat olduqda, dərhal 132 nömrəsi ilə Banka müraciət edin.